# Qəbələ Dövlət Tarix Bədii Qoruğunun yaranmasından 40 il keçir

***Qəbələ Dövlət Tarix-bədii Qoruğu 1978-ci ildə o vaxt Azərbaycanın rəhbəri olan ulu öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə yaranmışdır. Bununla ulu öndərin tariximizin, dövlətçiliyimizin və mədəniyyətimizin qədimliyinin göstəricisi olan Qafqaz Albaniyasının ilk paytaxtı Qəbələ şəhərinin qalıqlarını qorumaq, gələcək nəsillərə və dünyaya tanıtmaq məqsədilə həyata keçirdiyi bu missiya vətənə əsil xidmət nümunəsi olmuşdur.***

Azərbaycan müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin tarixi-mədəni irsimizin qorunub saxlanması sahəsində başlatdığı işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 15 ildə Qəbələ ərazisində arxeoloji tədqiqatlar sürətlənmiş, aşkara çıxarılan abidələrin, memarlıq nümunələrinin restavrasiyası və konservasiyası həyata keçirilmişdir. Qoruq ərazisində Arxeoloji Mərkəzin açılması qədim Qəbələnin tarixinin daha dərindən öyrənilməsinə və təbliğinə xidmət edir.

Qoruq yaranandan bəri bura on minlərlə turist gəlmiş, Azərbaycanın tarixi haqqında xeyli məlumat əldə etmişdir. Qoruğun ərazisində və ətrafında görülən abadlıq, quruculuq işləri,əraziyiə çəkilən asfalt yol buraya gələn turistlərin sayının xeyli artmasına səbəb olmuşdur.

Ölkə başçısının tapşırığı ilə "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur aksiyaların Qəbələ rayonuna gələn gənc iştirakçıları mütləq tarix-bədii qoruğuna gəlir və qədim Qəbələnin tarixi keçmişinə böyük maraq göstərirlər.




**Mirazim SƏMƏDOV**
**qoruğun elmi işçisi.**

# Yadda qalan görüş

Ürəyə yatan şeirləri və mahnıları ilə xalqın qəlbində özünə yer edən Tacəddin Şahdağlının bu yaxınlarda 90 yaşı tamam olub. Tacəddin Məmmədov (Şahdağlı) 1928-ci ildə Xırxatala kəndində dünyaya gəlib. 1949-cu ildə Ağdaş Pedaqoji Texnukumunu, 1957-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini, 1975-ci ildə BDU-nun jurnalistika fakültəsini bitirib. Yevlax rayonunun Xaldan qəsəbəsində, rayonumuzun Xırxatala, Zarağan, Uludaş, Qəmərvan və laza kəndlərində müəllim, sonralar isə "Qəbələ" ("Qalibiyyət") qəzeti redaksiyasında şöbə müdiri, redaktor, yerli radio verilişləri redaksiyasının təşkilatçı müxbiri işləmişdir.

Erkən yaşlarından poeziyaya maraq göstərmişdir. AYB-nin və AJB-nin üzvüdür. On səkkiz kitabın müəllifi olan nəğməkar şairin 20-dən çox şeirinə mahnı bəstələnmişdir.

Bu günlərdə şairin qələm dostlarından bir qrupu onun qonağı olmuşdur. Çay stolu arxasında baş tutan görüşdə yazarlardan bir neçəsi ustada həsr olunmuş şeirlərini oxumuş, ürək sözlərini söyləmişlər.

Yaddaqalan görüşdə xatirə şəkilləri çəkilmişdir.

**Emin BARATOĞLU,**
**"Qızıl Qələm" media mükafatı laureatı,**
**"Qəbələ" nin müxbir postunun rəhbəri.**

# Şagirdlər üçün seminar

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin pilot layihəsinə əsasən martın 14-də Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbində ümumtəhsil məktəbi şagirdləri üçün "Gələcəyin üçün oxu" mövzusunda seminar keçirilmişdir.***



Şagirdlərdə mütaliəyə marağın artırılması məqsədi ilə keçirilən tədbirdə nazirliyin mədəniyyətşünaslıq üzrə elmi metodiki mərkəzinin şöbə müdiri Məzahir Qarayev, İsmayıllı Regional Mədəniyyət və Turizm idarəsinin baş məsləhətçisi Nargilə Qafarova, Qəbələ Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Anar Rüstəmli çıxış etmişlər. Seminarda kənd fəalları, müəllimlər və şagirdlər arasında diskussiya aparılmışdır.

Sonda fəal oxucular arasında viktorina keçirilmiş və fəqlənənlərə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi Metodiki Mərkəzin sertifikatları təqdim olunmuşdur.

Tədbir Bum qəsəbə kitabxana filialı tərəfindən hazırlanmış bədii hissə ilə başa çatmışdır.

**Ülkər QƏDİROVA,**
**mərkəzi kitabxananın əməkdaşı.**

# Kitab sərgisi

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin pilot layihəsinə əsasən martın 16-da Nic qəsəbəsində səyyar kitab sərgisi keçirilmişdir.***

Oxucuların kitabxanalara cəlb olunması və mütaliəyə marağın artırılması məqsədi ilə keçirilən tədbirdə nazirliyin mədəniyyətşünaslıq üzrə elmi metodiki mərkəzinin direktoru Aif Usubəliyev, həmin mərkəzin şöbə müdiri Məzahir Qarayev, İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsinin baş məsləhətçisi Nargilə Qafarova, rayon MKS-in direktoru Anar Rüstəmli, Nic qəsəbə 2 saylı tam orta məktəbinin direktoru Valeri Martirosov, qəsəbə yaradıcılıq mərkəzinin direktoru Vitali Koçarxoy, udi mədəniyyət mərkəzinin direktoru Oleq Danakari, məktəblilər və qəsəbə ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.



Sərgidə mərkəzi kitabxananın, Nic qəsəbə, Mıxlıqovaq və Çuxur Qəbələ kənd kitabxana fiallarının fondunda olan kitablar oxuculara təqdim edilmişdir. Tədbirdə qəsəbə ziyalıları, müəllimlər və şagirdlər fəallıq göstərmişlər.

Sonda fəal kitabxanaçılara mədəniyyətşünaslıq üzrə elmi metodiki mərkəzin sertifikatları təqdim olunmuşdur.

Sərgi qəsəbə kitabxana filialının hazırladığı bədii hissə ilə başa çatmışdır.

**Maretta QARADARİ,**
**Nic qəsəbə kitabxana filialın müdiri.**

# Ədəbiyyat və teatr pərvanəsi

***Hələ 25 yaşından pyesi dövlət teatrında səhnə təcəssümü tapan, bu gün Azərbaycan ədəbiyyatında özünəməxsus söz sahibi olan qəbələli yazıçı-dramaturq, filologiya üzrə fəlsəfə doktoru Aygün Həsənoğlunun indiyədək 9 kitabı nəşr olunmuş, 8 pyesi tamaşaya qoyulmuşdur.***

Həmyerlimizin Xocalı soyqırımına həsr olunmuş "Adsız qadın" pyesi tamaşaçılar tərəfindən böyük hərarətlə qarşılanmış, tamaşa Xocalıda, Qarabağ müharibəsində və bütün dünyada terror və müharibə qurbanı olmuş qadınların səsinə, harayına çevrilmişdir.

Türkiyədəki Azərbaycan Kültür Evinin təşkilatçılığı, Türk Xalq Konseynin və "Türkbirtdev" cəmiyyətinin dəstəyi ilə hazırlanan tamaşa hazırda İstanbul Azərbaycan Teatrının repertuarındadır və iki ildir ki, müntəzəm nümayiş etdirilir.

"Adsız qadın" Aygün Həsənoğlunun Xocalı soyqırımını əks etdirən yeganə pyesi deyil. Hələ 1992-ci ildə Xocalıda qətl edilmiş uşaqlara həsr edilmiş "Çiçəklər açılanda" pyesi Şuşa Dövlət Teatrının repertuarındadır. 1994-cü ildə Dövlət Gənc Tamaşaçılar Teatrında quruluş verilmiş "Mağara" əsəri isə Qarabağ müharibəsi kimi düşdüyümüz mağaradan çıxış yolunun yalnız özümüzə düvənməkdə və milli birlikdə olduğunu göstərən bir əsərdir. Azərbaycanın xalq artisti, görkəmli rejissor Vaqif Əsədovun quruluşunda səhnəyə çıxmış tamaşada Yasin Qarayev, Şəfəq Əliyeva, Cəfər Namiq Kamal, Naibə Allahverdiyeva, Pərviz Məmmədrzayev kimi tanınmış aktoyrlar oynamışlar.

Bir-birinin ardınca "Oxu, bülbül", "Üçüncü güllə", "Dəlilər də gülür", "Qara sandıq", "Kölgə" əsərləri səhnəyə qoyulmuşdur.

Qarabağda girov götürülmüş uşaqlar haqqında yazdığı kinossenari əsasında "Girov uşaqlar" sənədli filmi çəkilmişdir. Əsərlərində vətənpərvərlik, milli birlik aşılayan tarixi mövzular ön planda olsa da, başəri-fəlsəfi təfəkkürün məhsulu olan "Çığır", "Pərdə", "Kəpənək", "Qatar" kimi əsərləri maraqla qarşılanmışdır. "Qovuq", "Yeddi qapı", "Bütün müharibələrə lənət", "Uşaqlar üçün pyeslər" kitabları oxucular tərəfindən sevilə-sevilə oxunur.

2005-ci ildə əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar nəşr olunmuş "Erməni terroru" fotoalbomu məhz Aygün Həsənoğlunun ideyası və layihəsi əsasında hazırlanmışdır. Onun "Erməni sindromu" kitabı 2007-ci ildə Azərbaycan dilində, 2010-cu ildə ingiliscə, 2013-cü ildə isə türkcə nəşr edilərək əldən-ələ gəzmiş, Azərbaycanda Qarabağ araşdırmalarına böyük təkan vermişdir. Erməni əsirliyində olmuş 300 keçmiş əsir və girovun xatirələrini toplayaraq 2008-ci ildə ingiliscə, 2018-ci ildə isə Azərbaycan və türk dillərində nəşr etdirmişdir. 2001-2008-ci illərdə 100-ə qədər məqaləsi dövrü mətbuatda dərc olunmuşdur.

İctimai işlərdə fəal olan Aygün Həsənoğlu Dünya Gənc Türk Yazarlar Birliyinin, Yeni Yazarlar və Sənətçilər Qurumunun təşkilatçılarından biri olmuşdur. O, 2009-cu ildə Elmi Araşdırmalar İctimai Birliyini yaratmış və "Ermənistan, əsirləri qaytar" adlı təbliğat kampaniyasını təşkil etmişdir.

Hazırda Türkiyədə yaşayan Aygün Həsənoğlu İstanbul Azərbaycan Teatrının və Azərbaycan Maarif və Mədəniyyət Dərnəyinin rəhbəridir.

Hekayələri Türkiyədə, Amerikada, İraqda nəşr edilən Aygün xanımın ilk yazıları "Qəbələ" qəzetində dərc edilmişdir. Onun "Həsrət" hekayəsi 7-ci sinif üçün hazırlanmış Azərbaycan dili dərsliyinə salınmışdır.

2002-ci ildə Gənclər Təşkilatları Milli Şurası tərəfindən mədəniyyət və ədəbiyyat sahəsindəki xidmətlərinə görə Azərbaycanın "Fəxri Gənc"i elan olunmuş, 2010-cu ildə "Dədə Qorqud" Milli Fondu və "Azərbaycan dünyası" jurnalı tərəfindən "Vətən övladı" medalına layiq görülmüşdür.

**Telman QASIMOV,**
**"Elmi Araşdırmalar"**
**İctimai Birliyinin sədri.**